# Ağlın toxluğundan qəlbin aclığına

## (Lev Tolstoyun "Anna Karenina" romanı barədə)



■ Fərid Hüseyn

*əvvəli ötən sayda*

### MASŞTAB MÖHTƏŞƏMLİYİ

"Anna Karenina" romanını bəyənən insanların bir çoxu bu əsəri əhatəliliyinə, müəllifin heç bir şeyi gözardı etməməyinə, vacib olan əksər məsələlərin həllini tapmasına görə sevirlər. Orxan Pamuk bu əsər haqqında yazır ki: "Roman sənətinin sirlərinə vaqif olmaq üçün, dəfələrlə oxunmalı olan əsər "Anna Karenina"dır". Daha əvvəlsə Pamuk sadalayır: "Yarış başlamamışdan əvvəl təsvir olunan atın möhtəşəmliyi, bədbəxt bürokratın yavaş-yavaş yaxasını tənhalığın əlinə verməsi, qadın qəhrəmanın üst dodağı, böyük bir ailədəki təbəddülatlar, birgə yaşanan talelərin içində tək-tək insanların inanılmaz və həyatdan da gerçək xüsusiyyətlərini Tolstoy möcüzəvi istedadla, təvazökarlıqla və yüksək sənətkarlıqla bizə çatdırır".

Orxan Pamuk sadalamalarla "Anna Karenina" dünyasındakı əhatəliliyi göstərir, amma daha vacib bir məsələni də qeyd edir: "Həyatdan daha gerçək". Tolstoyun əsərdəki ən böyük ustalığı, məncə də, həyata bərabər, yaxud həyatdan insana daha real təsir bağışlayan bir atmosfer yaratmasıdır. Bəs bədii əsər, həyatdan necə daha gerçək ola bilər? Axı həyat daha böyük, mürəkkəb anlayışdır və onu Allah var edib. Necə ola bilər ki, Allahın yaratdığı bir şey insanın yaratdığından daha az təsir bağışlaya və bir yazıçı əsər haqqında yaza ki, "həyatdan daha gerçək". Burada məsələ başqadır. Orxan Pamuk və Tolstoyu dərindən anlayan insanlar bu fikrin mənasını anlayırlar: insan bəzən həyatın tam olaraq fərqinə varmır, onun bütün xırdalıqlarına vaqif ola bilmir, insanları sonacan tanımağa qabil olmurlar. Amma Tolstoyun qələmə aldığı bədii əsərdə belə deyil, vəziyyət başqadır, çünki bu əsərdə insan problemli məsələlərə sonacan çata bilir, onu axıra qədər anlayır və eyni vəziyyətə, hadisəyə, süjetə həyatdan fərqli olaraq dönə-dönə qayıda bilir. Ona görə də bu cür bədii ədəbiyyat bizə bu imkanı verdiyi üçün o bəzən bizə daha inandırıcı, təsirli görünür. Həyata isə müdaxilə etmək, ona təkrar qayıtmaq müşküldür. Çünki keçmiş keçib gedib, gələcəkdən xəbərsizik, indimizi isə bir an da olsun tutub saxlaya bilmərik. Nəsrəddin Tusi əbəs demirdi:

*Gələcək gəlməmiş, keçmişsə getmiş,*
*O yoxla, bu yoxun qəminə dalma.*

### SADİQLİK

Bu romanı rus aristokrat ailəsinin sevgisi kimi qələmə verənlər, o mühitin faciəsi kimi qəbul edənlər var. Amma bu cür yanaşma əsəri həddindən artıq sosial müstəviyə gətirir, Tolstoyun "ailə mövzusu"nun sərhədlərini "rus ailəsi" çəmbərinə salıb onun əhatəsini daraldır. Əgər belə olsaydı Tolstoy qəhrəmanlarını başqa mühitə (kəndə, ayrı-ayrı şəhərlərə) aparmaz, onları sadəcə elitar, kübar mühitin içərisində saxlaya, süjeti o xətt üzrə inkişaf etdirə bilərdi. Bu mənada əsəri, yalnız kübar mühitlə, Rusiyanın o zamanki əhvali ilə bağlamaq yanlış yanaşmadır. Əlbəttə, romanda fransızca pis bilənlərin fransızca danışması, ailələrin ikiüzlülüklə qorunması kimi məsələlər var və bunlar çox barizdir. Bəziləri qeyd edirlər ki, əsərdəki vəzifələrin bir çoxu Tolstoyun özünün da vaxtı ilə məsuliyyətini daşıdığı vəzifələrdir, romandakı sosial sinif ona yaxındır, müəllifin məqsədi qadın hüquqsuzluğunu və s. göstərməkdir. Əlbəttə, bütün bunlar var və onların hər biri real həyat kimi geniş olan Tolstoy dünyasına sığır, amma ümumilikdə əsas məqam tək-tək məsələlərlə bağlı deyil, yəni bunların hamısının bütöv məcmusu, xüsusən isə ailə və Allah qanunları ilə yaşamağın aliliyi ideyasıdır. Və bu alilik iki təbəqənin - yuxarı və aşağı - birbirinə qarışmayan sularından daha duru, daha kirlənməz məsələdir. Bu sinifləndirmənin şərtiliyini göstərən amillərdən biri də Annanın sözün geniş mənasında heç kəsə nəsib olmaması, ölümə qucaq açmasıdır. Murat Özerin "Anna Karenina" haqqında yazdığı "Azadlığın faciəvi nəticələri" məqaləsində iki kişi obrazı - Aleksey və Vronski timsalında Annaya heç birinin sonacan sahib olmamasını göstərir: "İkisi də Annanı sevirlər, amma heç biri onu qazanması mümkün olmur. Çünki hər ikisinin sinfi təzyiqlərə boyun əymək məcburiyyətləri var, bu vəziyyətlə də Annaya tətbiq edərlər, bu nəticədə məsələlərin nəticəsi ilə üzləşmək cəsarəti də meydana çıxmır". Anna, həm də sevdiyi ona arzuladığı kimi sahib olmur deyə canına qıyır. Və bu da obrazın ortada qalmasından, məhəbbətə heç bir sinfin sahiblənə bilməməyindən, yaxud eşqin bütün siniflərdən yuxarıda dayanmasından, eyni zamanda insanın da ictimai buxovlardan azad ola bilməməyindən və bunun acı nəticələrindən xəbər verir. Məntiqi idi ki, Tolstoy sonra "Dirilmə" romanını yazdı və ictimai əxlaq məsələsinin üstünə bir az da getdi, onun acı faciələrini Nexlyudov və Katyanın faciəsi ilə daha dərindən göstərdi. Ancaq mövzular nə qədər fərqli olsa da - ailə səadəti, ictimai mövzu - şəxsi xoşbəxtliyi ictimai qaydalardan üstün tutmaqla, əslində, əsas ideyasına sadiq qalmış oldu.



### ANNA KARENİNA VƏ FACİƏ

Anna Karenina faciəvi sonluqla bitir və bu əsərdə faciə janrına xas olan əlamətlər var. Tolstoy bir qadının intihar etməsini eşidib qatar stansiyasına gəlir və eşidir ki, o varlı bir adamın məşuqəsidir və ölənə qədər eşqi yolunda çox qurbanlar verib. Bu real hadisə müəllifin düşüncələrini tarıma çəkir və onu əsər yazmağa sövq edir. Tolstoyun görkəmli tədqiqatçılarından, ədibin bioqrafiyasını yazan məşhur müəlliflərdən biri Henri Troyat müəllifin şahidi olduğu hadisə barədə yazır: "Bu hadisə Tolstoya dəhşətli bir dərs təsiri bağışlayır. Eşqi üçün hər cür fədakarlığı edən, amma axırda belə qorxunc ölümlə üzləşən bədbəxt qadının vəziyyətini təsəvvür etməyə çalışır. Qadının ölümü uzun müddət onun gözünün önündən çəkilməyib, Tolstoy bu hadisəni sadəcə roman materialı kimi düşünməyib". Roman boyunca Tolstoy, doğurdan da, eyni aqibət haqqında uzun-uzadı düşünür və yazır, dönə-dönə faciəyə - ölümə qayıdır. Con Şatherlənd "Ədəbiyyatın qısa tarixi" kitabında janrların mahiyyətini izah edəndə faciə barədə də yazır. Və o da bu janrın şah əsəri kimi Sofokulun "Çar Edip" faciəsini göstərir. Həmin əsərdə Edip doğulanda deyirlər ki, o, atasını öldürüb anası ilə evlənəcək. Sonda böyük hadisələrdən, keşməkeşlərdən sonra deyilən olur. Müəllif faciəni sevməyimizin səbəbini də bu qaçılmaz labüdlükdə görür. Necə ki, valideynlərimiz bizə deyir ki, filan yerə çıxma yıxılacaqsan, çıxıb yıxılırıq, əlbəttə, valideynlərimiz bundan pis olurlar, amma qəlblərinin gizli qatında bir məmnunluq da olur ki, onların uzaqgörənliyi özünü doğrultdu. Yəni faciənin əvvəlində onun sonunun necə bitəcəyi ilə bağlı ştrix, işarə olur, sonda o işarə tamamlanır deyə bu cür əsərlər oxucuların qəlbini ağrıtsa da onları təsirə salır, sənətkarlıq gücü ilə məmnun edir. Tragediya labüdlükdür, orada təsadüfə yer yoxdur. Aristotel də "Poetika" əsərində bu cür yanaşmanın tərəfdarı kimi çıxış edir.

HAŞİYƏ: Bir dəfə bu barədə tələbələrimə danışanda biri sual verdi ki, bəs onda Cəlil Məmmədquluzadənin "Ölülər" əsəri də tragikomediyadır, bəs orada niyə gözlənilən olmur - ölülər dirilmir. Onda bu məntiqə uyğun belə cavab verdim ki, Tragediya baş qəhrəmanla bağlı gözləntilərin reallaşmasıdır. "Ölülər"də də Kefli İsgəndərin inandığı məsələ olur - yəni ölülər dirilmir. Anna Karenina da eynən belədir - yəni baş qəhrəmanın aqibəti ilə bağlı məsələlər əvvəlcədən bilinir. Hətta Tolstoyun xanımı belə əsər yazılarkən bacısına yazdığı bir məktubda qeyd edir: "Dünən Lev birdən müasir bir roman yazmağa başladı. Mövzusu sədaqətsiz bir qadın və onun sevəndən sonra başlayan faciə haqqındadır". Yəni müəllifə də, onun həyat yoldaşına da ilk sətirlərdən aqibət bəlli olub, əsəri oxuyan oxucular da bir neçə səhifə sonra sonluğu anlayırlar. Maraqlısı odur ki, Tolstoyun həyat yoldaşı bu romanı "müasir roman" adlandırır. Burada müasir deyərkən müəllifin xanıma yaxın vaxtda baş vermiş real hadisəni və məşuqəsi olan bir qadın haqqında ayrıca əsər yazmağı düşünüb belə deyir. Çünki dövr kontekstində və Tolstoyun bu əsərdən əvvəlki mövzuları ilə müqayisədə mövzu, doğurdan da, nisbətən müasir idi.

Ardı var